Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan Milli
Kitabxanası



# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ - 140

## DAYCEST

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ – 140

## Daycest

BAKI – 2024

**Tərtibçi:** **Aygün Koçak**

**İxtisas redaktoru:** **Kərim Tahirov,**
*Professor, Əməkdar mədəniyyət işçisi*

**Məhəmməd Əmin Rəsulzadə-140**: daycest: [Elektron resurs] / tərt. A.Koçak; ixtisas red. K.Tahirov.- Bakı, 2024.- 40 s.

**© Azərbaycan Milli Kitabxanası, 2024**



***“Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal”.***

**Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2024-cü ilin yanvar ayında görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi tamam olur.

Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində mühacirətdə də o, müstəqil Azərbaycan arzusu ilə yaşamış və mübarizə aparmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140-cı ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 30 dekabr 2023-cü il*

# TƏRTİBÇİDƏN

2024-cü ildə Azərbaycanın dövlət və ictimai xadimi, siyasətçi və publisist, Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) banilərindən və Azərbaycan siyasi mühacirətinin liderlərindən olmuş Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi tamam olur.

Təqdim olunan daycestdə - ("digest"- ingilis dilindən tərcümədə "xülasə", "toplu" mənasını verir) M.Ə.Rəsulzadə haqqında 2020-2024-cü illərdə dövri mətbuat səhifələrində dərc edilmiş məqalələr araşdırılmış və seçmə yolu ilə istifadəçilərin diqqətinə çatdırılmışdır.

Daycestin hazırlanmasında əsas məqsəd geniş istifadəçi kütləsini M.Ə.Rəsulzadənin həyat və fəaliyyəti, ölməz irsi haqqında dərc olunmuş materiallarla tanış etməkdən ibarətdir. Daycestdə məqalələr illər üzrə, daxildə isə əlifba ardıcıllığı ilə verilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya ünvanlayan mütəxəssis və oxuculara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

Ünvan: AZ-1000 Bakı şəh., Xaqani küç. 57
**E-mail:** metodik_teminat@anl.az
**URL:**www.millikitabxana.az

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN HƏYAT VƏ FƏALİYYƏTİ HAQQINDA

Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə 1884-cü il, yanvar ayının 31-də Bakının Novxanı kəndində anadan olub. İlk təhsilini Sultan Məcid Qənizadənin 2 saylı rus-tatar (rus-Azərbaycan) məktəbində almış, Bakı texniki məktəbini bitirmişdir. Gənc yaşlarından inqilabi hərəkata qoşulmuş, "Müsəlman Gənclik Təşkilatı" adlı gənc azərbaycanlı inqilabçılar dərnəyi yaratmış və ona başçılıq etmişdir (1902-03). Təşkilat mətbəə üsulu ilə intibahnamələr çap edib əhali arasında yaymışdır.

1904-cü ildə o, Rusiya Sosial Demokrat Fəhlə Partiyası Bakı Komitəsi nəzdində Müsəlman sosial-demokrat "Hümmət" qrupunun yaradılmasında iştirak etmişdir. Bu dövrdə mətbuatda ("Şərqi-Rus", "Hümmət", "Təkamül" və s.) dərc olunmuş yazılarında xalqa söz, mətbuat, vicdan, cəmiyyət və ittifaqlar yaratmaq azadlıqları verilməsi, vətəndaşların əmlakının və canlarının toxunulmazlığının təmin olunması tələbləri ilə çıxış edir, xalqı maariflənməyə çağırır, Rusiyanın Azərbaycanda yeritdyi milli qırğın siyasətini kəskin tənqid edirdi.

1905-07-ci illər rus inqilabının gedişində və bundan sonra Azərbaycanda yaranan milli oyanış, Əlimərdan bəy Topçubaşov, Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə, Həsən bəy Zərdabi və başqalarının çar Rusiyasının milli ayrı-seçkilik siyasətinə qarşı mübarizəsi, getdikcə genişlənməkdə olan "türkləşmək, islamlaşmaq və müasirləşmək" ("türk qanlı, islam imanlı, Avropa qiyafətli") məfkurəsi Rəsulzadənin milli-siyasi görüşlərinin formalaşmasına güclü təsir göstərmişdir. 1906-07-ci illərdə "Təkamül"də, həmçinin başqa qəzetlərdə millətlərə, tayfalara, siniflərə, insanlara (fərdlərə) hüquq bərabərliyi və azadlıq tələb edən yazılarla çıxış etmiş və zaman keçdikcə bu siyasi tələbləri "insanlara hürriyyət, millətlərə istiqlal!" çağırışı kimi formalaşdırmışdır.

1905-07-ci illər inqilabının məğlub olmasından sonra Rusiyada təqiblərin artdığı şəraitdə Rəsulzadə İrana mühacirət etdi. Rəsulzadə 1908-11-ci illər İran inqilabında, Cənubi Azərbaycanda milli-demokratik oyanışda fəal iştirak etmiş, Səttarxan və Bağırxanla görüşmüşdü. Bu müddətdə o, Tehranda Avropa tipli ilk gündəlik "İrane-nou" ("Yeni İran") qəzetini dərc etmişdir (1910-11-ci illər). Həmin dövrdə o, Seyid Həsən Tağızadə ilə birlikdə İran Demokrat Partiyasını yaratmış və onun Mərkəzi Komitəsinə üzv seçilmişdir. İran inqilabı yatırıldıqdan (1911) sonra Rəsulzadə S.H.Tağızadə ilə birlikdə Türkiyəyə mühacirət etmişdir. Burada çar Rusiyasının təqiblərindən qurtularaq Türkiyəyə sığınmış Əli bəy Hüseynzadə və Əhməd Ağaoğlu ilə sıx əməkdaşlıq etmiş, "Türk ocağı" təşkilatına daxil olmuş, "Türk yurdu" jurnalında Cənubi Azərbaycan türklərinə həsr olunmuş məqalələrində onların milli-siyasi hüquqlannı müdafiə etmişdir. Rəsulzadə, eyni zamanda, bu dövrdə türkçülük ideyaları ilə daha dərindən tanış olur, böyük Azərbaycan mütəfəkkiri Şeyx Cəmaləddin Əfqaninin "Vəhdəti cinsiyyə fəlsəfəsi"nə ("Milli Birlik fəlsəfəsi"nə) yiyələnir, onu farscadan türkcəyə çevirib "Türk yurdu"nda çap etdirir.

Rəsulzadə 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilmiş əfv-ümumidən sonra Bakıya dönür, "Müsavat" partiyasının rəhbərliyinə keçir ("Müsəlman Demokratik Partiyası" "Müsavat" 1911-ci ilin oktyabrında, Rəsulzadə hələ Türkiyədə mühacirətdə olduğu zaman, Məmmədəli Rəsulzadə, Abbasqulu Kazımzadə və Tağı Nağıoğlu tərəfindən yaradılmışdı) və milli azadlıq mübarizəsində daha fəal iştirak edir.

1915-ci ildə "Açıq söz" qəzetini nəşr edir. Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparır, "Dirilik" (1914-16-ci illər) jurnalında "Milli dirilik" başlığı ilə silsilə məqalələr dərc etdirir, millətin tərifində dini birliyi deyil, dil və mədəniyyət birliyini önə çəkir, milli istiqlal ideyalarını geniş təbliğ edir.

Onun rəhbərlik etdiyi “Müsavat” partiyası milli azadlıq mübarizəsinin önünə keçir. Rusiyada Fevral inqilabının (1917-ci il) qələbəsindən sonra milli əsarət altında olan xalqlara, o cümlədən Azərbaycan xalqına yeni yaradılacaq demokratik Rusiyada “Milli-məhəlli (ərazi) muxtariyyət” verilməsi uğrunda mübarizə apanr. Qafqaz müsəlmanlarının Bakı (1917-ci il, aprel) və Rusiya müsəlmanlannın Moskva (1917-ci il, may) qurultaylarında öz mövqeyini uğurla müdafiə edir. Moskva qurultayında onun Azərbaycan dilində etdiyi çıxışda irəli sürülən “Milli-məhəlli (ərazi) muxtariyyət” proqramı Əhməd Salikovun “milli-mədəni muxtariyyət” proqramından fərqli olaraq böyük səs üstünlüyü ilə (446:291) qəbul olunur. Bu, Rusiyanın türk xalqları arasında onun nüfuzunu daha da artırdı. Nəticədə o, Rusiyanın gələcək dövlət idarəçiliyi formasını müəyyən edəcək Müəssislər məclisinə Azərbaycanla yanaşı Türküstandan da deputat seçildi.

1917-ci ilin iyununda “Müsavat”la Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi “Türk Ədəmi-Mərkəziyyət” Partiyası birləşdi. Rəsulzadə birləşmiş “Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat”ın sədri oldu. 1917-ci ilin oktyabrında “Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat”ın 1-ci qurultayında M.Ə.Rəsulzadə partiyanın Mərkəzi Komitəsinin sədri seçildi. O, qurultaydakı çıxışında partiyanın mübarizə istiqamətini müəyyən edərək bildirdi: ***“Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal”.*** Lakin Oktyabr çevrilişindən (1917-ci il) sonra Rusiyada bolşevik irticası və yeni milli əsarət dövrü başlandı. Silah gücünə keçmiş Rusiya imperiyasının sərhədlərini bərpa etmək siyasəti yeridildi. Bakıda və onun ətraflarında hakimiyyəti ələ keçirən S.Şaumyamn bolşevik-daşnak güruhu Azərbaycana “muxtariyyət” əvəzinə “məzarıstan” vəd etdi və 1918-ci ilin martında Bakıda və bunun ardınca ölkənin digər bölgələrində Azərbaycan xalqına qarşı kütləvi soyqırımları törədildi. Mart soyqırımı zamanı milli-istiqlalçı qüvvələrə başçılıq edən “Müsavat”ın binası və “Açıq söz”ün redaksiyası yandırıldı.

Bu zaman Rəsulzadə milli azadlıq hərəkatının digər görkəmli nümayəndələri ilə birlikdə Qafqazın Rusiyadan aynlaraq müstəqil konfederasiya dövləti yaratması və Türkiyə ilə sülh danışıqlarına girməsi uğrunda mübarizəyə başlayır və Tiflisdə - Zaqafqaziya fraksiyası rəyasət heyətinin sədri kimi çıxışlar edir. Zaqafqaziya seymi dağıldıqda Rəsulzadə Batum konfransında iştirak etdiyinə görə gizli səsvermə nəticəsində qiyabi olaraq Azərbaycan Milli Şurasının (parlamentinin) sədri seçilir (1918-ci il, 27 may). Milli Şura Azərbaycanı müstəqil dövlət elan edir və M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının sədri kimi xarici işlər naziri Məmməd Həsən Hacınski ilə birlikdə Osmanlı dövləti ilə Batum müqaviləsini imzalayır (1918-ci il, 4 iyun). Müqavilənin 4-cü maddəsinə əsasən Osmanlı dövləti Bakı sovetinin daşnak-bolşevik hərbi birləşmələri və erməni-daşnak quldur dəstələri tərəfindən soyqırıma məruz qalmaqda olan Azərbaycan xalqına qardaşlıq yardımı göstərir. Azərbaycanın və bütün Cənubi Qafqazın türk-müsəlman əhalisi qırılıb məhv olmaqdan qurtulur. Rəsulzadə dövlət xadimi kimi Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ilin iyununda baş vermiş ilk hökumət böhranının aradan qaldırılmasında mühüm rol oynamış, istiqlalın qorunub saxlanması naminə sədri olduğu Milli Şuranın müvəqqəti olaraq, istefasına razılıq vermişdir.

O, 1918-ci ilin iyununda Azərbaycan Xalq Cümhuriyyətinin İstanbul beynəlxalq konfransına göndərilən səlahiyyətli nümayəndə heyətinə (Rəsulzadədən başqa Xəlil bəy Xasməmmədov və Aslan bəy Səfikürdski daxil idi) sədrlik etmiş, çox mürəkkəb beynəlxalq şəraitdə Azərbaycanın mənafeyini uğurla müdafıə etmiş, Azərbaycanda hərbi işin təşkili, maliyyə problemi, ərazi məsələsi haqqında Türkiyə rəsmiləri ilə danışıqlar aparmış, xüsusən Bakı məsələsində çevik və prinsipial mövqe tutmuşdur.

1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurasının fəaliyyəti bərpa olunduqdan sonra onun sədri kimi Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin formalaşdırılmasında mühüm rol oynamışdır.

Parlamentin təntənəli açılışında (1918-ci, 7 dekabr) parlaq nitq söyləmiş və sonra "Müsavat" partiyası adından gənc Cümhuriyyətin dövlət quruluşu, daxili və xarici siyasətinin əsas prinsipləri barədə bəyannamə ilə çıxış etmişdir. Onun ***"...müstəqil Azarbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı-əhrarnəsini təmsil edən bu iiç boyalı bayraq daima başlarımızın üstündə ehtiraz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir"*** sözləri Parlament üzvlərinin ayaq üstə sürəkli alqışları ilə qarşılanmışdı. Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində "Müsavat" fraksiyasına (1919-cu ilin oktyabrından "Müsavat" və bitərəflər fraksiyasi) başçılıq etmiş, digər istiqlalçı qüvvələrlə birlikdə Azərbaycanın milli və dövlət maraqlarına cavab verən qanunların qəbulunda həlledici rol oynamışdır.

M.Ə.Rəsulzadə Parlamentdə Bakı Dövlət Universitetinin açılması ətrafında gedən müzakirələrdə də qətiyyətli çıxışlar etmişdi. O, milli kadrların azlığına görə Universitetin açılmasını vaxtsız hesab edənlərə və başqa dildə açılmasına qarşı çıxanlara cavabında demişdi: ***"...Universitetin təsis edilməsi dövlətin əsas vəzifələrindən biri olmalıdır, buna görə də bütün maneələr aradan qaldırılmalıdır. Əlbəttə, yaxşı olardı ki, açılacaq elm ocağı türk dilində olaydı, lakin bu hələlik mümkün deyildir. Lakin, bu, başqa dildə də olsa, Universitetin fəaliyyət göstərməsinə mane olmamalıdır. ...Universitetdə türk dili keçiləcək, tələbələrin özləri də Bakıda, öz doğma xalqı içərisində özlərini rahat hiss edəcəklər".*** M.Ə.Rəsulzadə Universitet fəaliyyətə başladıqdan sonra tarix-filologiya fakültəsində Osmanlı ədəbiyyatı tarixindən dərs demişdir. Rəsulzadə bu dövrdə Borçalı və Qarabağla bağlı Azərbaycan Xalq Cümhuriyyətinə qarşı qaldırılmış ərazi iddialarında prinsipial mövqe tutmuşdur. Borçalı ilə bağlı Azərbaycan hökumətini "qan tökməklə" hədələyən gürcü nümayəndəsinə ***"nə etmək olar, əgər məcbur etsələr, qan da tökmək olar"*** deyə qətiyyətlə cavab vermişdi. O, Qarabağ məsələsində də eyni cür qətiyyət göstərmişdi:

***“Bizim fikrimizcə və hökumətin fikrinə görə Qarabağ məsələsi yoxdur. Necə ki, Bakı məsələsi yoxdur. Buna görə də Qarabağ ünvanı ilə olan hər növ təklifi rədd edirik”.***

Rəsulzadə “Müsavat” partiyasının 1919-cu ilin dekabrında keçirilmiş 2-ci qurultayının rəyasət heyətinin sədri seçilmiş, partiyanın Mərkəzi Komitəsinin və Parlament fraksiyasının fəaliyyəti haqqında hesabat məruzəsi ilə çıxış etmişdir. Yenidən partiyanın Mərkəzi Komitəsinin sədri seçilmişdir.

1920-ci il aprelin 27-də XI Qırmızı ordunun artıq Bakını ələ keçirmiş olduğu şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində hakimiyyəti bolşeviklərə təhvil vermək məsələsi müzakirə olunarkən qətiyyətlə bunun əleyhinə çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra gizli fəaliyyətə keçən Rəsulzadənin göstərişi ilə Bakıda “Müsavat”ın gizli mərkəzi yaradıldı. Onun özü isə Lahıcda gizləndi. Rəsulzadə qırmızı istiladan sonra Azərbaycan Xalq Cümhuriyyətinin dövlət strukturlarının dağıdılması, repressiyalar, qanlı qırğınlar dovründə xalqın sovet-bolşevik rejiminə qarşı göstərdiyi şiddətli müqaviməti və verdiyi saysız qurbanları görərək, milli bayrağın torpaqlara deyil, millətin vicdanına enmiş olduğunu, hər kəsin bu bayrağı ruhunda, qəlbində və bağrında mühafızə etməkdə olduğuna inandığını bildirirdi.

M.Ə.Rəsulzadə 1920-ci il avqustun 17-də həbs olunmuş, lakin İ.Stalinin göstərişi ilə həbsdən azad olunub Moskvaya aparılmış, Rusiya Sovet Federativ Sosialist Respublikasının Milli İşlər Komissarlığında işlə təmin olunmuşdu. Bir müddət sonra Sankt-Peterburqa, oradan isə gizli yolla Finlandiyaya keçərək Türkiyəyə mühacirət etdi. 1922-ci ilin sonlarında onun İstanbulda siyasi mühacir həyatı başlandı. O, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra müxtəlif xarici ölkələrə getməyə məcbur olan azərbaycanlıların istiqlal mübarizəsini vahid mərkəzdən ibarə etmək məqsədilə Azərbaycan Milli Mərkəzini (İstanbulda), “Müsavat” Partiyasının Xarici Bürosunu yaratdı və

“Müsavat”ın Azərbaycanda fəaliyyət göstərən gizli təşkilatına istiqamət verdi.

O, eyni zamanda siyasi mühacirətin parçalanmasının qarşısını almağa, onun vahid mərkəzdən idarə olunmasına çalışırdı. 1926-cı ildə onun fəal iştirakı ilə Parisdə “Prometey” təşkilatı yaradıldı. “Prometey” sovet rejiminə qarşı müxtəlif xalqların nümayəndələrinin vahid mübarizə blokunu yaratmalı idi. 1931-ci ildə sovet hökumətinin tələbinə əsasən, Türkiyəni tərk etməyə məcbur oldu. 1932-ci ildə Rəsulzadənin siyasi mühacirətinin Polşa dövrü başlandı. 1934-cü ildə Ə.Topçubaşovla birlikdə Brüsseldə Qafqaz Konfederasiyası sazişini imzaladı. Sazişə əsasən Qafqazda Azərbaycan, Gürcüstan və Şimali Qafqaz respublikalarından ibarət konfederasiya dövləti - respublikası yaratmaq nəzərdə tutulurdu. Ə.Topçubaşovun ölümündən (1934-cü) sonra siyasi mühacirətin istiqlal mübarizəsində aparıcı rol oynadı. 1936-cı ildə Varşavada “Müsavat”ın qurultay səlahiyyətli konfransını keçirdi. M.Ə.Rəsulzadə konfransda “Milli hərəkatda Firqə” mövzusunda hesabat məruzəsi ilə çıxış edərək, partiyanın həm Azərbaycan daxilində, həm də mühacirətdə öz taktiki xəttini düzgün müəyyənləşdirdiyini bildirdi. O, “şəxslər müvəqqəti, ideologiya əbədidir” tezisini əsas tutaraq, siyasi mühacirləri istiqlal ideologiyasına sadiq olmağa çağırdı.

1939-cu ildə İkinci dünya müharibəsinin başlanması ilə Polşadan Fransaya, oradan İsveçrəyə, İsveçrədən İngiltərəyə, nəhayət Rumıniyaya keçdi. 1942-ci ildə Azərbaycanın istiqlalına nail olmaq məqsədilə Almaniyanın Xarici İşlər Nazirliyi və Şərq Nazirliyi ilə danışıqlara girdi. Lakin danışıqlar uğursuzluqla nəticələndi. M.Ə.Rəsulzadə Berlində “Azərbaycanın milli haqlarını qorumaq, vətənin xilası və istiqlalı üçün mübarizə etmək, qafqasiyalı millətlərin dostluqları və siyasətcə bir yerdə yaşamaları üçün çalışmaq və Almaniya ilə sıx surətdə işbirliyi təmin etmək” məqsədilə Milli Azərbaycan Komitəsi yaratdı. Almaniya tərəfindən Azərbaycan müstəqilliyinin tanınması məsələsində müsbət nəticə əldə olunmadığını görən Rəsulzadə 1942-ci ilin sonlarında

Almaniyanı tərk edib Buxarestə getdi. Müharibənin sonuna yaxın Münxendə gizli şəraitdə yaşayan Rəsulzadənin yaratdığı "Azərbaycan Demokrat Birliyi" cəmiyyəti azərbaycanlıların faşist əsirliyindən azad olunmasına, bir müddət sonra yaratdığı "Türkiyə-Azərbaycan" cəmiyyəti isə onların Türkiyəyə aparılmasına kömək göstərdi.

Müharibədən sonra, 1947-ci ildə Türkiyəyə qayıdan Rəsulzadə burada Azərbaycan Milli Mərkəzinin başçısı kimi fəaliyyətini davam etdirdi. O, eyni zamanda bütün Azərbaycan mühacirlərini vahid mərkəz ətrafında birləşdirmək məqsədilə Ankarada Azərbaycan Kültür Dərnəyini yaratdı (1949-cu il, 1 fevral). 1952-ci ilin dekabrında Münxendə keçirilən Ümumi Qafqaz Konfransında iştirak etdi. Konfransın qərarına əsasən, Azərbaycanın, Gürcüstan və Şimali Qafqazın təmsil olunduğu Qafqaz İstiqlal Komitəsi yaradıldı. Amerika Birləşmiş Ştatlarına gedərək Azərbaycanın Xalq Cümhuriyyətinin yaradılmasının 35-ci ildönümü münasibətilə 1953-cü il mayın 28-də "Amerikanın səsi" radiosu ilə Azərbaycan xalqına müraciət etdi.

Rəsulzadə Azərbaycanın mətbuat tarixində siyasi publisistikanın ən görkəmli nümayəndələrindən biridir. Tədqiqatlar göstərir ki, onun 1903-20-ci illərdə təkcə Azərbaycanın dövri mətbuatında 1200-dən artıq müxtəlif janrda yazıları dərc olunmuşdur. O, ədəbi-publisistik fəaliyyətini siyasi mühacirət illərində də davam etdirmiş, Azərbaycan xalqının tarixi və ədəbiyyatı ilə bağlı çoxsaylı məqalələr dərc etdirmişdir. Bu dövrdə "Yeni Qafqasya" (1923), "Azəri Türk" (1928), "Odlu yurd" (1929), "Qurtuluş" (1934), "Müsavat bülleteni" (1936), "Azərbaycan" (1952) jurnallarını, "İstiqlal" (1932) qəzetini nəşr etdirmişdir.

Rəsulzadə ömrünün sonunadək Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda istiqlal mübarizəsini davam etdirmişdir. 1955-ci il, mart ayının 6-da Ankarada vəfat etmiş və həmin şəhərin Əsri qəbristanında dəfn olunmuşdur.

***Mənbə:*** ***http://tarixinstitutu.az/personalities/view/104***

## MƏQALƏLƏR

## 2020

Cabbarlı, Ş. Əmin bəy! Bakı alındı!: Bakını bizə bəxş edənlərin ruhları qarşısında baş əyirik / Şəhla Cabbarlı // Türküstan.- 2020.- 29 sentyabr-5 oktyabr.- S.9.
***http://www.anl.az/down/meqale/turkustan/2020/sentyabr/719772.htm***

Yazıda Azərbaycan mübarizə tarixinin şanlı səhifəsi olan, Bakının azadlığa qovuşduğu gün kimi tariximizə işıq saçan 15 sentyabrdan bəhs edilir, çar imperiyasının caynağından qurtulan və istiqlalına qovuşan Azərbaycanımızın öz paytaxtını qəsbçilərdən qurtarmaq üçün düşmənlə ölüm-dirim mübarizəsindən, qələbə sevinci Azərbaycan xalqına Gəncədə nəşr olunan dövlətin rəsmi orqanının - "Azərbaycan" qəzetinin ilk sayında çatdırılan Bakının alınması xəbərindən danışılır.

Əhməd, D. Məhəmməd Əmin Rəsulzadənin bir fotoşəkli... / Dilqəm Əhməd // Mədəniyyət.- 2020.- mart-aprel.- S.19.
***https://www.anl.az/down/meqale/medeni_az/2020/mart-aprel/04(meqale).pdf***

Məqalədə Rəsulzadənin 1919-cu ildə "Azərbaycan" qəzetinin redaksiyasında, 1922-ci ildə Finlandiyada ikən, 1927-ci ildə İstanbulda, 1928-ci ildə Cümhuriyyətin 10-cu ildönümü münasibətilə, 1929-cu ildə Avropada çəkilən fotoşəkilləri qeyd edilir, həmçinin müəllifin İstanbulda olarkən əldə etdiyi Rəsulzadəyə aid kiçik və xeyli maraq doğuran, hansısa vəsiqə və ya dərgi üçün çəkildiyini ehtimal etdiyi fotoşəklindən bəhs edilir.

Əhməd, D. Rəsulzadə və rus dili / Dilqəm Əhməd // Türküstan.- 2020.- 15-21 sentyabr.- S.6. **https://anl.az/down/meqale/turkustan/2020/sentyabr/717054(meqale).pdf**

Müəllif Cümhuriyyətimizin qurucusu M.Ə.Rəsulzadənin Bakıda universitet açılması ilə bağlı parlamentdəki qızğın müzakirələrindən bəhs edir.

Nuri, E. Məhəmməd Əmin Rəsulzadənin dəhşətli ailə faciəsi... / Elmin Nuri // Unikal.- 2020.- 1 fevral.- S.19. **http://www.anl.az/down/meqale/unikal/2020/fevral/699813.htm**

Məqalədə M.Ə.Rəsulzadənin 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) devriləndən sonra məcburiyyət səbəbindən vətəni tərk etməsi, onun Novxanı kəndində yaşayan ailəsinin olmazın məşəqqətlərə qatlaşması, ailənin başına gələn faciələrdən bəhs edilir.

Özcan, Ö. Mehmet Emin Resulzade'nin Almanya ile ilişkileri / Ömer Özcan // Ədəbiyyat qəzeti.- 2020.- 12 iyun.- S.30-31. **http://www.anl.az/down/meqale/edebiyyat/2020/iyun/712206.htm**

Müəllif Rəsulzadənin II Dünya müharibəsində Alman rəhbərlər ilə münasibətləri mövzusundakı yazıları ve danışıqları izlədiyini, lakin bu mövzuda məlumatı olan çox az insana müraciət edildiyini təəssüf hissi ilə qeyd edir, Rəsulzadənin 1930-cu ildə ayrıldığı Türkiyəyə dostlarının təkidi ilə yalnız Türk vətəndaşlığına qəbul edilərək 1947-ci ildə qayıda bildiyini yazır. Xaricdə yaşadığı illərdə 1939-cu ilin sentyabr ayına qədər Polşa, 1944-cü ilə qədər Buxarestdə, arada isə qısa müddət Almaniya və

Fransada yaşadığını bildirir və Almaniya hökuməti ilə münasibətlərinə toxunur.

Rəşid, Ə. "Sən bizimsən, bizimsən durduqca bədəndə Can, Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!" / Əntiqə Rəşid // Ədalət.- 2020.- 1 fevral.- S.7.
**http://www.anl.az/down/meqale/adalet/2020/fevral/699905(meqale).pdf**

Yazıda 8 may 1953-cü ildə "Amerikanın Səsi" radiosundan Azərbaycan xalqına xitabından götürülən bu fikirlərin müəllifi olan böyük Azərbaycan sevdalısı M.Ə.Rəsulzadənin Vətənin müstəqilliyi probleminin həlli istiqamətindəki mücadiləsindən danışılır.

Turan, A. Rəsulzadə bizim üçün Vətən mehrabı qurdu…: Haqqında söz demək Paşinyanlara düşməz / Azər Turan // Ədəbiyyat qəzeti.- 2020.- 23 may.- S.14.
**https://www.anl.az/down/meqale/edebiyyat/2020/may/709205.htm**

Müəllif Paşinyanın Rəsulzadəyə atdığı iftiranın vaxtilə Stalinin erməni ideoloqlarının Zəki Vəlidi Toğana atdıqları iftiradan heç fərqlənmədiyini, Zəki Vəlidini də Hitlerin "müsəlman məsələləri üzrə xüsusi müşaviri" kimi şərlədiklərini yazır.

Türk şairi və ideoloqu Nihal Atsızın "Dəvətiyyə" şeirini, şairin "Azərbaycan Türkiyəni quran türklərin ilk yığınaq bölgəsiydi. Anadolu, İraq və Suriya buradan irəliləməklə vətən qılınmışdı. XIII yüzildə Xorasandan Akdənizə qədər uzanmış Böyük Türkiyəni idarə edən Elxanlıların mərkəzi bölgəsi Azərbaycandı. Quzeyi rus, güneyi əcəm əlində qalmış olan Azərbaycan... Qırğınla, kültürlə və hiyləylə yox edilmək istənməsinə rəğmən böyük bir diriliklə dirənməkdə və

güclənməkdədir... Böyük keçmişi və mədəniyyəti olan böyük millətlər necə olsa zincirlərini qırarlar. O gün umulmaz dərəcədə yaxın da ola bilər. İstək və inanc hər çətinliyi devirir. İnanalım və bəkləyəlim" fikrini xatırlayır.

Rəsulzadənin heç vaxt faşist cəbhəsini təmsil etmədiyini qeyd edən müəllif, eyni zamanda onun İstiqlalsız bir Azərbaycanı da təsəvvürünə gətirə bilmədiyindən, Azərbaycan sevgisini heç kəsə, heç doğma övladlarının taleyinə də güzəştə getmədiyindən bəhs edir.

**2021**

Böyükkişi, F.İ. Davamız Azərbaycan davasıdır! / Fəzail İsmayıl Böyükkişi // Türküstan.- 2021.- 19-25 yanvar.- S.17.
***https://www.anl.az/down/meqale/turkustan/2021/yanvar/731164(meqale).pdf***
// Türküstan.- 2021.- 26 yanvar-1 fevral.- S.17.
***https://www.anl.az/down/meqale/turkustan/2021/yanvar/731669(meqale).pdf***
// Türküstan.- 2021.- 2-8 fevral.- S.17.
***https://www.anl.az/down/meqale/turkustan/2021/fevral/732461(meqale).pdf***
// Türküstan.- 2021.- 9-15 fevral.- S.17.
***https://www.anl.az/down/meqale/turkustan/2021/fevral/733511(meqale).pdf***
// Türküstan.- 2021.- 2-8 mart.- S.19.
***https://www.anl.az/down/meqale/turkustan/2021/mart/736720(meqale).pdf***
// Türküstan.- 2021.- 16-22 fevral.- S.17.
***https://www.anl.az/down/meqale/turkustan/2021/fevral/734628(meqale).pdf***

Məqalə Azərbaycan Milli Qurtuluş hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadənin anadan olmasının 136-cı ildönümünə və Azərbaycan ərazisinin bütövlüyü və Oğuz türklərinin milli istiqlaliyyəti uğrunda yenilməz mübariz Abbas Lisaninin anadan olmasının 54-cü ildönümünə həsr edilmişdir. Silsilə yazıda Rəsulzadənin elmi, ədəbi, ictimai-siyasi fəaliyyəti haqqında geniş məlumat əksini tapır, əsərləri təhlil edilir.

Əlizadə, L. Nizami Gəncəvi yaradıcılığı Məhəmməd Əmin Rəsulzadənin tədqiqlərində

(Nizami və Füzuli "Leyli və Məcnun"larının qarşılıqlı təhlili) / Lalə Əlizadə // Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal.- 2021.- №3(117).- S.439-442.
***https://www.anl.az/down/meqale/bdu_dil_edebiyyat/2021/03/102(meqale).pdf***

Dahi Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığının M.Ə.Rəsulzadə tədqiqlərinə həsr olunmuş məqalədə müəllifin əsasən iki dahi şairimiz Nizami ilə Füzulinin "Leyli və Məcnun" poemaları üzərində apardığı müqayisəli təhlili araşdırmasından söz açılmışdır. Nizaminin möhtəşəm ədəbi irsində ideya-estetik, mövzu baxımından müstəsna yer tutan "Leyli və Məcnun" əsərinin özəl xüsusiyyətlərinə diqqət verilmiş, Rəsulzadənin sözügedən problemə yanaşma tərzi və onun ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən tədqiqi məqalədə məqsədli şəkildə izlənilmiş, onun hər iki "Leyli və Məcnun" müəllifinə verdiyi dəyərdən bəhs edilmişdir.

Quliyev, V. Məhəmməd Əmin Rəsulzadə "Qafqaz dağlıları" jurnalının səhifələrində / Vilayət Quliyev // 525-ci qəzet.- 2021.- 28 may.- S.22-23.
***https://www.anl.az/down/meqale/525/2021/may/745965.htm***
// 525-ci qəzet.- 2021.- 5 iyun.- S.16-17.
***https://www.anl.az/down/meqale/525/2021/iyun/747148.htm***

Məqalədə bütünlükdə Qafqaz, eləcə də Azərbaycan siyasi mühacirət tarixini, mühacir irsini və vətəndən uzaqlarda fəaliyyət göstərmiş ayrı-ayrı görkəmli şəxsiyyətləri öyrənmək baxımından indiyə qədər tarixşünaslığımızda diqqətdən kənarda qalmış, 1929-cu ildə Qafqaz Dağlıları Xalq Partiyasının mətbu orqanı kimi rus dilində nəşr olunmuş

və 1929-1934-cü illərdə dağlı siyasi mühacirətinin liderlərindən biri, partiyanın idarə heyətinin üzvü, milliyyətcə kabardin olan knyaz Elmurza Bekoviç-Çerkasskinin (1898-1940) redaktorluğu ilə Parisdə təsis olunmuş qaynaqlardan biri olan "Qorüı Kavkaza" – "Qafqaz dağlıları", 1934-cü ilin aprel ayında, 50-ci saydan sonra Varşavada nəşrini "Severnıy Kavkaz - Şimali Kafkasya" adı altında davam etdirən jurnaldan bəh edilir, M.Ə.Rəsulzadənin 1929-1933-cü illərdə "Qafqaz dağlıları" jurnalında dərc olunmuş 7, 1934-1938-ci illərdə isə "Şimali Kafkasya" jurnalında işıq üzü görmüş 8 məqaləsindəki əsas ideyalarından yazılır.

Müəllif bu məqalələri M.Ə.Rəsulzadənin günümüzün reallıqları ilə səsləşən, tarixi əhəmiyyətini itirməyən yetkin siyasi publisistika nümunələri kimi diqqəti cəlb etdiyini düşünür, bu yazıların ana dilinə tərcüməsi, müəllifin əsərləri külliyyatına daxil edilməsi və dövrün kontekstində daha təfərrüatlı şəkildə araşdırılıb öyrənilməsini tarixçi və politoloqlarımızın qarşısında duran vəzifə hesab edir.

Mədətoğlu, A. Azərbaycan milli azadlıq hərəkatının ideoloqu və lideri / Aydın Mədətoğlu // Türküstan.- 2021.- 2-8 fevral.- S.14.
***https://www.anl.az/down/meqale/turkustan/2021/fevral/732457(meqale).pdf***
// Türküstan.- 2021.- 9-15 fevral.- S.14.
***https://www.anl.az/down/meqale/turkustan/2021/fevral/733510(meqale).pdf***

Müəllif M.Ə.Rəsulzadənin elmi, fəlsəfi, siyasi-ideoloji yazıları haqqında, millətin formalaşması və bütünləşməsində dilə verdiyi önəm, məqalə və çıxışlarındakı müstəqillik mövqeyi, milli istiqlal və hürriyyət yolundakı əzmli fəaliyyətindən yazır.

Musayeva, İ. Məmməd Əmin Rəsulzadə Nizami Gəncəvi haqqında / İradə Musayeva // Qobustan: Sənət toplusu.- 2021.- №2.- S.7-14.
***[https://www.anl.az/down/meqale/qobustan/2021/2/03(meqale).pdf](https://www.anl.az/down/meqale/qobustan/2021/2/03(meqale).pdf)***

Məqalədə Azərbaycan Cümhuriyyətinin qurucusu olan M.Ə.Rəsulzadənin öz ədəbi-intellektual dünyagörüşü, mədəni-siyasi, tarixi bilgiləri ilə "Azərbaycan" adlı məmləkətin tarixinin yazılmasındakı missiyasından bəhs edilir, 1941-ci ildə yazmağa başladığı və 1951-ci ildə Ankarada nəşr etdirdiyi "Böyük Azərbaycan şairi Nizami" adlı əsərinin məziyyətlərinə toxunulur, böyük şəxsiyyətin öz əsərində Nizami yaradıcılığının mahiyyətini, Nizami irsində sənət və ideoloji məsələləri daha çox ümumtürk, xüsusən də Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni düşüncəsi kontekstində təhlil və təqdim etdiyi qeyd edilir.

Tahirli, A. Cümhuriyyətin məziyyətləri "Yeni Qafqasya"da / Abid Tahirli // 525-ci qəzet.- 2021.- 28 may.- S.13.
***[https://www.anl.az/down/meqale/525/2021/may/745930.htm](https://www.anl.az/down/meqale/525/2021/may/745930.htm)***

Yazıda 1923-cü il sentyabrın 26-da Rəsulzadənin rəhbərliyi ilə İstanbulda "ədəbi, ictimai, siyasi məcmuə" kimi, on beş gündə bir dəfə çıxmaqla, ərəb əlifbası ilə nəşrə başlayan, 1927-ci il oktyabrın 15-də sonuncu - 95-ci nömrəsi buraxılan, mətbuat tariximizin ən şərəfli, döyüşkən nümunələrindən olan "Yeni Qafqasya" dərgisinin nömrələrində, xüsusilə tarixi hadisələrin ildönümlərinə həsr edilən saylarında Azərbaycan Xalq Cümhuriyyətinə və onunla əlaqəli mövzulara dair işıq üzü görmüş məqalələrdən bəhs edilir, çox mürəkkəb bir tarixi şəraitdə bərqərar olmuş dərginin milli hökumətin fəaliyyətinin demək olar ki, bütün sahələrini - dövlət quruculuğu istiqamətində həyata keçirilən islahatları, elm, təhsil, maarif və mədəniyyətin inkişafı, milli

ruhlu yeni nəslin yetişdirilməsi, eyni zamanda, ölkədə baş verən ictimai-iqtisadi, siyasi hadisələri yüksək peşəkarlıqla işıqlandırdığı vurğulanır.

Tahirli, A. 1920-ci illərdə Azərbaycan poeziyası Məhəmməd Əmin Rəsulzadənin araşdırmalarında / Abid Tahirli // Azərbaycan ədəbiyyatşünaslığı / AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu.- 2021.- №1.- S.148-155.
***https://www.anl.az/down/meqale/amea_az_edebiyyatshunasligi/2021/01/773901(meqale).pdf***

Məqalədə Azərbaycan istiqlal tarixinin bayraqdarı olan M.Ə.Rəsulzadənin 1920-ci illər Azərbaycan poeziyasına, onun yaradıcılarına – Hüseyn Cavid, Əhməd Cavad, Gültəkin və digər istiqlal və hürriyyət şairlərinin yaradıcılığına həsr etdiyi araşdırmaları bugünkü tələblər baxımından geniş təhlil olunur və dəyərləndirilir.

Yaqublu, N. M.Ə.Rəsulzadə irsində Nizami yaradıcılığı: I məqalə / Nəsiman Yaqublu // Ədəbiyyat qəzeti.- 2021.- 6 noyabr.- S.15.
***https://www.anl.az/down/meqale/edebiyyat/2021/noyabr/765697.htm***

M.Ə.Rəsulzadənin Azərbaycan ədəbiyyatı və tanınmış yazıçı, şairlərimizlə bağlı olan ciddi araşdırmalarından bəhs edilən məqalədə onun 1923-cü ildə nəşr edilən “Azərbaycan Cümhuriyyəti, keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti” kitabında və 1928-ci ildə çap olunan “Qafqasya türkləri” əsərində Nizami haqqında qısa məlumat verdiyi, Nizami haqqında geniş araşdırmalara əsaslanan əsərinin İkinci Dünya müharibəsinin başlanmasından sonraya təsadüf etdiyi, bunun daha çox onun Rumıniyada yaşadığı illərə (1940-1944) aid olduğu yazılmışdır.

Yaqublu, N. M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" kitabı haqqında: III məqalə / Nəsiman Yaqublu // Ədəbiyyat qəzeti.- 2021.- 20 noyabr.- S.12-13.
**[https://www.anl.az/down/meqale/edebiyyat/2021/noyabr/767665.htm](https://www.anl.az/down/meqale/edebiyyat/2021/noyabr/767665.htm)**

Müəllif M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" adlı dəyərli əsərində Şərq İslam mədəniyyətində Azərbaycanın əhəmiyyətinə xüsusi önəm verildiyini, M.Ə.Rəsulzadənin Nizaminin əslən Gəncəli olduğunu qeyd edərək onun doğum yeri ilə bağlı bəzi müəlliflərin yanlışlıqlarına aydınlıq gətirdiyini, şairin İranın Qum şəhərindən olması fikri ilə razılaşmadığını yazır.

Yaqublu, N. M.Ə.Rəsulzadənin Nizami Gəncəvi araşdırmaları: II məqalə / Nəsiman Yaqublu // Ədəbiyyat qəzeti.- 2021.- 13 noyabr.- S.13.
**[https://www.anl.az/down/meqale/edebiyyat/2021/noyabr/766521.htm](https://www.anl.az/down/meqale/edebiyyat/2021/noyabr/766521.htm)**

Məqalədə M.Ə.Rəsulzadənin 1941-ci ilin 10 avqustunda tamamladığı və Nizami Gəncəviyə həsr etdiyi "Azərbaycan şairi Nizami" adlı əsərini 1949-cu ildə nəşr olunmaq üçün Milli Təhsil Nazirliyinə təqdim etməsi, lakin əsərdə rusların əleyhinə ifadələr olduğu səbəbilə müəllifə irad bildirildiyi, kitabın nəşrinin Cümhuriyyət Partiyasının hakimiyyətdə olduğu 1950-ci ilə qədərki dönəmdə mümkün olmadığı, yalnız Tevfik İlərinin təhsil nazir işlədiyi zamanda nazirliyin nəşri olaraq 1951-ci ildə çap edildiyi qeyd edilir, kitabın bölümləri haqqında qısa məlumat verilir.

Yaqublu, N. M.Ə.Rəsulzadənin Nizami Gəncəvi araşdırmalarında yeniliklər: IV məqalə / Nəsiman

Yaqublu // Ədəbiyyat qəzeti.- 2021.- 4 dekabr.- S.20-21.
***[https://www.anl.az/down/meqale/edebiyyat/2021/dekabr/769546.htm](https://www.anl.az/down/meqale/edebiyyat/2021/dekabr/769546.htm)***

Müəllif yazıda M.Ə.Rəsulzadənin öz tədqiqatında Nizami şəxsiyyətinin böyüklüyünü faktlarla təqdim etməsindən, Gürcüstanın məşhur şairi Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərinə Nizaminin təsirini əsaslandırmasından, "Nizamidə Qafqasya" mövzusunu təhlili və müqayisəli faktlarla tədqiqindən, Nizamidə "eşq fəlsəfəsi", "din", "sosial ideal" problemlərini dərindən açıqlamasından bəhs edir.

Yaqublu, N. M.Ə.Rəsulzadənin Nizami Gəncəvi haqqında unudulmuş məqalələri: V məqalə / Nəsiman Yaqublu // Ədəbiyyat qəzeti.- 2021.- 18 dekabr.- S.23.
***[https://www.anl.az/down/meqale/edebiyyat/2021/dekabr/772480.htm](https://www.anl.az/down/meqale/edebiyyat/2021/dekabr/772480.htm)***

Məqalədə M.Ə.Rəsulzadənin Ankarada Azərbaycan Kültür Dərnəyinin nəşri olaraq yayınlanan "Azərbaycan" jurnalının 1952-ci il 1 may sayında çap edilən "Nizamidə türklük", həmin ilin 1 iyunundakı 3-cü sayında dərc olunan "Doğu İslam mədəniyyətində Azərbaycanın rolu", Əli xan Qantəmirin məsul müdirliyi ilə Münhendə nəşr edilən "Qafqasya" jurnalının 1952-ci ilin avqust sayında işıq üzü görən "Azərbaycan şairi Nizami və dünyanın bugünkü durumu" adlı yazılarından, eyni zamanda 1952-ci ilin 31 iyulunda "Amerikanın səsi" radiosunda yayınlanan ""Amerikanın səsi" radiosunda Nizami" başlıqlı verilişdən bəhs edilir.

## 2022

Əhməd, D. Rəsulzadəyə aid yeni sənədlər - Vəfakar dost, sədaqətli elçi / Dilqəm Əhməd // Türküstan.- 2022.- 14-20 iyun.- S.8-9.
***https://www.anl.az/down/meqale/turkustan/2022/iyun/804414(meqale).pdf***

Məqalədə 35 illik mühacirət həyatında Azərbaycan Cümhuriyyətinin qurucusu M.Ə.Rəsulzadəyə bütün imkanları ilə dəstək olan, onun Türkiyə dövləti ilə münasibətlərini tənzimləyən məşhur siyasətçi, yazıçı, Türk Ocağının önəmli simalarından Həmdullah Sübhi Tanrıöver ilə əlaqələrindən, birgə fəaliyyətlərindən sənədlərə əsaslanaraq bəhs edilir.

Əhməd, D. Şah və qurucu / Dilqəm Əhməd // Türküstan.- 2022.- 19-25 iyul.- S.5.
***https://www.anl.az/down/meqale/turkustan/2022/iyul/807045(meqale).pdf***

Müəllif Şah İsmayıl Xətainin 535-ci ildönümü münasibətilə qələmə aldığı yazıda M.Ə.Rəsulzadənin onun haqqında düşüncələrini araşdırır, onun "Azərbaycan mədəniyyətinin qaynaqları" əsərindəki fikirlərini, əsərin Rəsulzadənin arxivinə sahib olan dəyərli türk alimi Yavuz Akpınar tərəfindən əlyazmadan hazırlanaraq dərc edildiyini qeyd edir.

Ələkbərli, F. Məmməd Əmin yaradıcılığında türkçülük, azərbaycançılıq və milli həmrəylik: I yazı / Faiq Ələkbərli // Türküstan.- 2022.- 11-17 yanvar.- S.10.
***https://www.anl.az/down/meqale/turkustan/2022/yanvar/775631(meqale).pdf***
II yazı // Türküstan.- 2022.- 18-24 yanvar.- S.10.

***http://www.anl.az/down/meqale/turkustan/2022/yanvar/776916(meqale).pdf***
III yazı // Türküstan.- 2022.- 25-31 yanvar.- S.10.
***http://www.anl.az/down/meqale/turkustan/2022/yanvar/777986(meqale).pdf***
IV yazı // Türküstan.- 2022.- 1-7 fevral.- S.10.
***http://www.anl.az/down/meqale/turkustan/2022/fevral/779573(meqale).pdf***
V yazı // Türküstan.- 2022.- 8-14 fevral.- S.10.
***https://www.anl.az/down/meqale/turkustan/2022/fevral/780430(meqale).pdf***
VI yazı // Türküstan.- 2022.- 15-21 fevral.- S.10
***https://www.anl.az/down/meqale/turkustan/2022/fevral/781476(meqale).pdf***
VII yazı // Türküstan.- 2022.- 22-28 fevral.- S.10.
***https://www.anl.az/down/meqale/turkustan/2022/fevral/782654(meqale).pdf***
VIII yazı // Türküstan.- 2022.- 1-7 mart.- S.10.
***https://www.anl.az/down/meqale/turkustan/2022/mart/784727(meqale).pdf***
IX yazı // Türküstan.- 2022.- 10-14 mart.- S.10.
***https://www.anl.az/down/meqale/turkustan/2022/mart/785621(meqale).pdf***

Məqalədə Azərbaycan və Türk dünyasının böyük oğlu M.Ə.Rəsulzadəyə türkçülük cərəyanının təsirindən, bunun nəticəsində azərbaycançılıq ideyasının, bütövlükdə milli məfkurənin formalaşmasının onun 1911-1913-cü illərdə İstanbuldakı elmi-fəlsəfi fəaliyyəti ilə başlamasından, milli türk şairi, azadlıq nəğməkarı Əmin Yurdaqulun başçılıq etdiyi “Türk yurdu” cəmiyyətinin onun həyatına təsirindən, eyniadlı dərgidə yayınlanan məqalələrindən bəhs edilir.

Həmçinin, Azərbaycançılıq və türkçülük ideyaları konteksində millət məsələsinə geniş yer verməsi şərh edilir, Azərbaycan parlamentinin açılışında (7 dekabr, 1918) söylədiyi nitqdən bəzi məqamlar, "Yeni Qafqasya"nın səhifələrində dərc olunan yazıları diqqətə çatdırılır.

Mühacirət həyatı dövründə də milli istiqlal və müsavatçılıq ideyalarını davam etdirməsi, milli məsələ ilə, yəni türkçülüklə islamçılıq, türkçülüklə liberal, sosial-demokrat cərəyanları arasında ideya oxşarlığı tapmağa çalışması istiqamətindəki fəaliyyətindən yazılır.

Eyni zamanda, 1920-ci illərin ortalarından etibarən yenidən solidarizm məsələsinə qayıdan Rəsulzadənin yaradıcılığında həmrəylik təliminin önəmi, indivudalizm (fərdiyyətçilik) və universalizm (külliyyət) arasındakı məsələdə ən doğru yolun təsanüdçülük, ya da həmrəyliklə bağlı olması haqqındakı fikirlərindən bəhs edilir.

Həsənzadə, T. Məhəmməd Əmin Rəsulzadəyə ədəbi abidə: I beynəlxalq Rəsulzadə qiraətləri / Tahirə Həsənzadə // Kredo.- 2022.- 16 mart.- S.5.
***https://anl.az/down/meqale/kredo/2022/mart/786767(meqale).pdf***

Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin lideri M.Ə.Rəsulzadə irsinin tədqiqatçılarının məqalələr toplusu olan "I Beynəlxalq Rəsulzadə Qiraətləri" adlı kitabdan, kitabda yer almış tanınmış ölkə və xarici alimlərin məqalələrindən bəhs edilir.

Xələfli, Ə.R. Məmməd Əmin Rəsulzadə - 138: Ədalət haqqı - dövlət hüququ / Əli Rza Xələfli // Kredo.- 2022.- 2 fevral.- S.1.
***https://www.anl.az/down/meqale/kredo/2022/fevral/779388(meqale).pdf***

Müəllifin "İti bucaq" kitabından olan kiçik yazısında M.Ə.Rəsulzadənin Azərbaycan dövlətini yaşarı ideologiya ilə silahlandırdığı, ona əbədi nəfəs verdiyi deyilir, həmçinin Qulu Məhərrəmlinin Rəsulzadə sevgisi qeyd edilir.

İsrafiloğlu, M. Azərbaycan istiqlalının prometeyi Məhəmməd Əmin Rəsulzadə / Məhəmməd İsrafiloğlu // Türküstan.- 2022.- 1-7 fevral.- S.9.
**[https://www.anl.az/down/meqale/turkustan/2022/fevral/779564(meqale).pdf](https://www.anl.az/down/meqale/turkustan/2022/fevral/779564(meqale).pdf)**
// Türküstan.- 2022.- 8-14 fevral.- S.9.
**[https://www.anl.az/down/meqale/turkustan/2022/fevral/780416(meqale).pdf](https://www.anl.az/down/meqale/turkustan/2022/fevral/780416(meqale).pdf)**
// Türküstan.- 2022.- 15-21 fevral.- S.9.
**[http://www.anl.az/down/meqale/turkustan/2022/fevral/781472(meqale).pdf](http://www.anl.az/down/meqale/turkustan/2022/fevral/781472(meqale).pdf)**

Məqalədə inqilabçı, demokrat, ədib, qəzetəçi, mühərrir, türkçü, tərcüməçi, şair, ictimai-siyasi xadim və nəhayət Cümhuriyyət qurucularının öndərliyini edən, siyasətdə çoxkombinasiyalı gedişlərin usta bir qrosmeysteri olan Rəsulzadənin beyninin təfəkkürün bütün istiqamətlərinə üzə bilən nəhəng gəmini andırdığı vurğulanır, onun "İran türkləri" adlı irihəcmli məqaləsindəki hadisələrə olan baxışlarından bəhs edilir, İranda ilk dəfə Avropa tipli mətbuatın – "İran-nou"nun əsasını qoyduğu qeyd edilir.

Əmin bəyin İran inqilabının əfsanə ismi Səttarxan ilə görüşlərinə toxunan müəllif həmçinin onun ümmətçilikdən türkçülüyə keçidi sağlamasını nail olduğu ən böyük başarılardan hesab edir, Cümhuriyyətimizə Azərbaycan adı qazandırmasından danışır.

Eyni zamanda, M.Ə.Rəsulzadə millətin taleyüklü ideyalarını bacardıqca mühit və dövrünə sığdırmağı bacaran praqmatik bir siyasətçi və dövlət xadimi kimi anılır.

Yaqublu, N. M.Ə.Rəsulzadənin Nizami Gəncəvidən tərcümələri: VI məqalə / Nəsiman Yaqublu // Ədəbiyyat qəzeti.- 2022.- 29 yanvar.- S.26.
***[https://www.anl.az/down/meqale/edebiyyat/2022/yanvar/778885.htm](https://www.anl.az/down/meqale/edebiyyat/2022/yanvar/778885.htm)***

Məqalədə qeyd edilir ki, M.Ə.Rəsulzadə Nizami əsərlərinin orijinaldan ilk tərcüməçisidir və bu tərcümələr Türkiyə türkcəsinə çevrilsə də, onlarda azərbaycançılıq ruhu aşkar hiss olunmaqdadır. Müəllif həmçinin 1940-cı illərə qədər Nizaminin əsərlərinin Azərbaycan dilində oxunmasının mümkün olmadığını, 1940-cı illərdəki tərcümələrin isə sətri tərcümələr əsasında hazırlandığını, M.Ə.Rəsulzadə tərcümələrinin üstünlüyünün fars dilindən, yəni orijinaldan edilməsi, Azərbaycan türkcəsində asan başa düşülməsi olduğunu yazır.

## 2023

Abidqızı, G. Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu, siyasətçi və publisist M.Ə.Rəsulzadə / Göyərçin Abidqızı // Ədalət.- 2023.- 26 may.- S.6.
**[https://www.anl.az/down/meqale/adalet/2023/may/852663(meqale).pdf](https://www.anl.az/down/meqale/adalet/2023/may/852663(meqale).pdf)**

Məqalədə 1904-cü ilin sonlarında "Müsəlman sosial-demokrat "Hümmət" təşkilatının banilərindən və 1904-1905-ci illərdə 6 nömrəsi çap olunan "Hümmət" adlı qəzetin əsas naşirlərindən biri, tariximizin böyük şəxsiyyətlərindən biri olan M.Ə.Rəsulzadənin məqalə və kitablarının nəşrindən bəhs edilir.

Böyükkişi, F.İ. Əbədiyyət günəşi - Əmin bəy: Bu gün M.Ə.Rəsulzadənin 139-cu doğum günüdür / Fəzail İsmayıl Böyükkişi // Türküstan.- 2023.- 31 yanvar-6 fevral.- S.6.
**[https://www.anl.az/down/meqale/turkustan/2023/yanvar/833926(meqale).pdf](https://www.anl.az/down/meqale/turkustan/2023/yanvar/833926(meqale).pdf)**

Yazıda M.Ə.Rəsulzadənin Azərbaycan Cümhuriyyətinin 35 illiyi münasibətilə "Amerikanın səsi" radiosu vasitəsilə Azərbaycan xalqına müraciətindəki, 1954-cü ildə "Azərbaycan" aylıq kültür dərgisinin 2 və 3-cü sayında, "Azərbaycan davası" əsərinin sonunda istiqlalsevərlərə söylədiyi bəzi fikirləri diqqətə çatdıran müəllif, Əmin bəyin milli kimliyimiz, milli dövlətçiliyimiz haqqında gənclik illərində qələmə aldığı, həmçinin dini görüşləri haqqındakı fikirlərindən bəhs edir.

Kəngərli, Q. "Azərbaycanda milli hərəkat" kitabı Bişkekdə / Qulu Kəngərli // Xalq qəzeti.- 2023.- 15 oktyabr., № 225.- S.16.

**https://www.anl.az/down/meqale/xalqqazeti/2023/oktyabr/870747(meqale).pdf**

Kiçik məlumatda Qırğızıstandakı Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun təşəbbüsü ilə Bişkekdəki "Uluu Toolor" nəşriyyatında M.Ə.Rəsulzadənin Azərbaycan və rus dillərində "Azərbaycanda milli hərəkat" kitabının nəşr edilməsi, kitabın 2009-cu ildə Bakıdakı "Elm" nəşriyyatında çap olunduğu, nəşrin tərtibçisi və "Ön söz"ünün müəllifinin mərhum professor Şirməmməd Hüseynov, redaktorunun isə mərhum professor Nəsir Əhmədli olduğu qeyd edilir. Həmçinin Fondun ənənəsinə uyğun olaraq kitabın Mərkəzi Asiya ölkələrində pulsuz yayılacağı, gələcəkdə qırğız, ingilis dillərində çap olunmasının da nəzərdə tutulduğu vurğulanır.

Kəngərli, Q. Tarixi yaradanlar: Məmməd Əmin Rəsulzadə / Qulu Kəngərli // Xalq qəzeti.- 2023.- 15 noyabr, №248.- S.9.
**https://www.anl.az/down/meqale/xalqqazeti/2023/noyabr/876207(meqale).pdf**

Yazıda "Altun Kitab" nəşriyyat evinin "Tarixi yaradanlar" silsilə nəşrlər toplusuna əlavə edilən və jurnalist, tədqiqatçı, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmlinin elmi-publisistik dildə qələmə alınan "Məmməd Əmin Rəsulzadə" adlı kitabının nəşr edildiyi haqqında məlumat verilir, kitabda istiqlal mücahidinin həyatı və şəxsiyyəti ilə bağlı bir-birindən maraqlı faktlar, yeni məlumat və mülahizələrin yer aldığı qeyd edilir.

Qızı yoxa çıxdı, oğlunu güllələdilər, nəvəsi...: Rəsulzadə ailəsinin başına gətirilənlər // Paralel.- 2023.- 2 fevral.- S.14.
**https://www.anl.az/down/meqale/paralel/2023/fevral/838507.htm**

Məqalədə Rəsulzadənin nəvəsi, Əməkdar rəssam Rais Rəsulzadənin fikirlərindən və tədqiqatçı-publisist Nəcibə Bağırzadənin "Uzaqdakı yaxınlar" kitabındakı faktlardan istifadə edilərək M.Ə.Rəsulzadənin ailəsinin başına gətirilən faciələrdən qısaca yazılmışdır.

Rzayeva, M. Onların ömrü Vətənin ömrü qədərdir: Məhəmməd Əmin Rəsulzadənin həyatı "Azərbaycanı necə sevməli" sualına cavabdır / Məlahət Rzayeva // Şərq.- 2023.- 31 yanvar.- S.6. ***https://www.anl.az/down/meqale/sherq/2023/yanvar/834027(meqale).pdf***

M.Ə.Rəsulzadənin 139-cu ildönümü münasibətilə qələmə alınan məqalədə böyük mücahidin mühacir həyatından, ideyalarının gerçəkləşməsi yolundakı dönməz fəaliyyətindən, xalqına müraciətlərindən bəhs edilir.

## 2024

Ağalarlı, M. Milli dirçəlişə töhfə verən ictimai-siyasi xadim: Məhəmməd Əmin Rəsulzadə - 140 / Mübariz Ağalarlı // Azərbaycan.- 2024.- 31 yanvar, №20.- S.11.
***[https://www.anl.az/down/meqale/azerbaycan/2024/yanvar/882323(meqale).pdf](https://www.anl.az/down/meqale/azerbaycan/2024/yanvar/882323(meqale).pdf)***

Məqalədə M.Ə.Rəsulzadənin elmi-ədəbi irsində Azərbaycan dövlətçiliyi, onun etnik tarixi və milli kimlik məsələləri ilə bağlı problemlərin mühüm rolundan, onun istər dogma vətənində, istərsə də mühacirət dövründə qələmə aldığı əsərlərinin Azərbaycan və ümumtürk tarixinin öyrənilməsi üçün olduqca böyük əhəmiyyət kəsb etməsindən bəhs edilir.

Beybutova, L. Xalq Cümhuriyyətinin dönməz lideri: Məhəmməd Əmin Rəsulzadə - 140 / Lətafət Beybutova // 525-ci qəzet.- 2024.- 30 yanvar, №17.- S.12.
***[https://www.anl.az/down/meqale/525/2024/yanvar/882406.htm](https://www.anl.az/down/meqale/525/2024/yanvar/882406.htm)***

Yazıda Azərbaycanın milli istiqlal mübarizəsi tarixində mühüm rol oynamış M.Ə.Rəsulzadənin ölkəmizdə türkçülük fikrinin əsaslandırılmasında, milli dövlət quruculuğu yolunda ərazi muxtariyyatı tələbinin elmi-nəzəri cəhətdən irəli sürülməsindəki böyük xidmətləri xatırlanır, istiqlal mübarizəmizin çoxillik tarixi olduğunu müəyyənləşdirməsi, milli hərəkatın xarakterini aydınlaşdıraraq müxtəlif başlıqlar altında təsvir və təqdim etməsi qeyd edilir.

Bir kərə yüksələn bayraq yenə başımızın üstündədir: Yox yerdə dövlət qurub adını tarixə

yazanları minnətdarlıqla yad edirik // Mədəniyyət.- 2024.- 31 yanvar, №8.- S.1.
***https://www.anl.az/down/meqale/medeniyyet/2024/yanvar/882437(meqale).pdf***

Məqalədə Azərbaycanın milli istiqlal tarixinin böyük şəxsiyyəti M.Ə.Rəsulzadənin anadan olmasının 140-cı ildönümü münasibətilə, yubileyinin keçirilməsi məqsədilə cənab prezidentimiz tərəfindən imzalanan sərəncamla yubiley tədbirlərinin dövlət səviyyəsində il boyu keçiriləcəyi qeyd edilir, müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin Xalq Cümhuriyyəti qurucuları haqqındakı qiymətli sözləri verilir.

Əliyeva, M. Xalqının hürriyyəti arzusu ilə yaşamış istiqlal mücahidi / Mehparə Əliyeva // Respublika.- 2024.- 31 yanvar, №20.- S.7.
***https://www.anl.az/down/meqale/respublika/2024/yanvar/882329(meqale).pdf***

Məqalədə M.Ə.Rəsulzadənin XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolundakı böyük xidmətlərindən danışılır.

Quliyev, V. Zəki Vəlidi Toğan, Əlimərdan bəy Topçubaşi və Məhəmməd Əmin Rəsulzadə "üçbucağ": Məhəmməd Əmin Rəsulzadə - 140 / Vilayət Quliyev // 525-ci qəzet.- 2024.- 20 yanvar, №11.- S.18-20.
***https://www.anl.az/down/meqale/525/2024/yanvar/882422.htm***

Müəllif XX əsr başqırd tarixinə hərbi-siyasi xadim, milli-azadlıq hərəkatının (1917-1920) lideri, publisist, tarixçi, türkoloq, elm təşkilatçısı

kimi daxil olmuş Zəki Vəlidi Toğanın XX əsrin əvvəllərindəki Azərbaycan ictimai-siyasi fikri, xüsusən də onun M.Ə.Rəsulzadə, Ə.Topçubaşı, Ə.Ağaoğlu, Ə.Hüseynzadə və b. nümayəndələri ilə Rusiya imperiyasının süqutundan əvvəl başlanmış tanışlıq və əlaqələrindən bəhs edir, bu münasibətlərin etibarlı zəminə, fikir və düşüncə yaxınlığına, tarixi tale oxşarlığına əsaslandığından çətin mühacirət illərində də davam etdirildiyini bildirir.

“Məhəmməd Əmin Rəsulzadə və Türk dünyası” // Mədəniyyət.- 2024.- 26 yanvar, №7.- S.2. ***https://www.anl.az/down/meqale/medeniyyet/2024/yanvar/882436(meqale).pdf***

Yazıda AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi münasibətilə “Məhəmməd Əmin Rəsulzadə və Türk dünyası” mövzusunda keçirilmiş tədbir haqqında məlumat verilir. Qeyd edilir ki, Azərbaycan Türk Ocağı İctimai Birliyi ilə birgə təşkil olunan tədbirdə Milli Məclisin deputatları, tədqiqatçılar, Rəsulzadənin ailə üzvləri iştirak etmiş, maraqlı çıxışlar olmuşdur.

Məmmədli, N. Ey türk gənci, iftixar et!: Professor Qulu Məhərrəmlinin kitabı Rəsulzadə irsinin öyrənilməsində və təbliğində yeni səhifədir / Natiq Məmmədli // 525-ci qəzet.- 2024.- 31 yanvar, №18.- S.13. ***https://www.anl.az/down/meqale/525/2024/yanvar/882351.htm***

Məqalədə professor Qulu Məhərrəmlinin ötən ilin sonlarında Rəsulzadə irsinə həsr olunmuş, onun mübarizələrlə dolu ömür yoluna, ictimai-siyasi, fəlsəfi düşüncə tərzinə işıq tutan kitabının məzmunu haqqında geniş təhlil yer alır.

Milli Kitabxanada "Məhəmməd Əmin Rəsulzadə-140" adlı virtual və eyniadlı ənənəvi sərgi hazırlanıb // Azərbaycan.- 2024.- 31 yanvar, №20.- S.11.
**https://www.anl.az/down/meqale/azerbaycan/2024/yanvar/882325(meqale).pdf**

Məqalədə M.Ə.Rəsulzadənin 140 illik yubileyi münasibətilə Milli Kitabxananın əməkdaşları tərəfindən "Məhəmməd Əmin Rəsulzadə-140" adlı virtual və eyniadlı ənənəvi sərgi hazırlandığı, virtual sərgidə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı, fotolar, dövri mətbuat səhifələrində haqqında dərc olunan məqalələr, müəllifi olduğu kitablar, haqqında yazılan kitablar, ənənəvi sərgidə isə Milli Kitabxananın fondunda mühafizə olunan əsərləri, ictimai-siyasi fəaliyyəti ilə bağlı ədəbiyyatların Azərbaycan və digər dillərdə nümayiş olunması haqqında məlumat verilir.

Mustafa, F. Məhəmməd Əmin bəy: ("Dirilən adamın düşüncələri" kitabından) / Fazil Mustafa // 525-ci qəzet.- 2024.- 10 fevral, № 26.- S.18, 19.
**https://www.anl.az/down/meqale/525/2024/fevral/882404.htm**

Məqalədə müəllifin M.Ə.Rəsulzadə haqqında "Dirilən adamın düşüncələri" kitabından seçilmiş fikirləri yer almışdır.

Şirinoğlu, V. 28 aprel işğalı: M.Ə.Rəsulzadənin əsərləri üzərindən təhlil / Vaqif Şirinoğlu // Ədalət.- 2024.- 2 fevral, №4.- S.9, 14.
**https://www.anl.az/down/meqale/adalet/2024/fevral/882334(meqale).pdf**

Müəllif mühacirət ədəbiyyatını yaradanların real tarixi həqiqətlərin işıq üzü görməsinə və sonralar problemlə əlaqədar müasir dövrün

tarixşünaslığının yaranmasına mühüm təsiri olduğunu qeyd edərək, 1920-ci ilin aprel işğalından sonra xarici ölkələrə mühacirətə getməyə məcbur qalan Cümhuriyyət liderlərinin XX əsrin 20-70-ci illərində yazmış olduqları əsərlərində AXC-nin süqutunun və Azərbaycanda bolşevik rejiminin qurulmasının səbəblərini araşdırmağa çalışmalarından danışır, M.Ə.Rəsulzadənin 28 aprel işğalı və ondan sonra Azərbaycanda baş vermiş hadisələrə obyektiv münasibətindən bəhs edir, hadisələrin tədqiqi və təbliği məqsədilə yazdığı bir neçə əsəri təhlil edir.

Tariximizdə, mənəviyyatımızda silinməz iz // Mədəniyyət.- 2024.- 31 yanvar, №8.- S.2.
***https://www.anl.az/down/meqale/medeniyyet/2024/yanvar/882439(meqale).pdf***

Yazıda Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində "Məhəmməd Əmin Rəsulzadə tariximizdə, ədəbiyyatımızda, mənəviyyatımızda" mövzusunda keçirilmiş elmi konfrans haqqında məlumat verilir, muzeyin direktoru akademik Rafael Hüseynovun "Milli düşüncəmizin Məhəmməd Əmin Rəsulzadə səhifəsi", muzeyin elmi işçisi Nəcibə Bağırzadənin "Məhəmməd Əmin Rəsulzadənin ədəbiyyatla bağlı araşdırmalarında Azərbaycan davası", filologiya üzrə fəlsəfə doktoru Sevinc Heydərovanın "Nizami Muzeyinin ekspozisiyasında Cümhuriyyət irsi", filologiya üzrə fəlsəfə doktoru Şəhla Abdullayevanın "Məhəmməd Əmin Rəsulzadənin repressiya olunmuş doğmaları", dosent Göyərçin Mustafayevanın "Tatar tarixçisi Bulat Sultanbekovun Məhəmməd Əmin Rəsulzadə haqqında araşdırması" mövzularında məruzələrlə çıxış etdikləri qeyd edilir.

Eyni zamanda, Milli Azərbaycan Tarixi Muzeyində də Məhəmməd Əmin Rəsulzadənin 140 illik yubileyi münasibətilə alim və mütəxəssislərin, ali məktəb tələbələrinin iştirakı ilə tədbir təşkil edildiyi, tədbirdə muzeyin Azərbaycan tarixinin elmi tədqiqi və təqdimi şöbəsinin aparıcı elmi işçilərinin "Məhəmməd Əmin Rəsulzadə Lənkəranda",

“Məhəmməd Əmin Rəsulzadənin yaradıcılığında milli və dini məsələlərə dair” mövzularında məruzələrinin dinlənildiyi bildirilir.

Verdiyev, İ. Dil məsələsinə Rəsulzadə münasibəti / İmran Verdiyev // 525-ci qəzet.- 2024.- 25 yanvar, №14.- S.11. ***https://www.anl.az/down/meqale/525/2024/yanvar/882341.htm***

Müəllif M.Ə.Rəsulzadənin publisistikasının mühüm bir qolunu təşkil edən, dil və ana dili məsələlərinə həsr edilmiş, 1914-cü ildə nəşr edilmiş “Dil ictimai mühüm bir amil kimi”, “Açıq söz” qəzetində çap edilmiş “İslam dini və ana dili”, 1913-cü il tarixli “İqbal” qəzetində dərc edilmiş “Əlifba bayramı”, “Odlu Yurt” jurnalında çap olunmuş “Yeni Türk əlifbası və bolşevik mətbuatı”, 1923-cü ildə “Yeni Kafkasiya” jurnalındaişıq üzü görmüş “Azərbaycanda latın əlifbası”, “Azəri Türk” jurnalının 1928-ci ildə çıxan 18-ci sayında yayınlanmış “Hərf inqilabı müvacihəsində (üz-üzə gəlməsində)” adlı məqalələri, həmçinin bu gün də aktual olan ortaq dil və ortaq əlifba barədə fikirlərinə toxunur, 1929-cu ildə artıq latın qrafikası ilə çap etdirdiyi “Odlu Yurt” jurnalında “Arapça, Türkçe, Sovyetçe” başlıqlı cədvəl barədə məlumat verir.

Verdiyev, İ. Məhəmməd Əmin Rəsulzadənin nəzərindəki Füzuli irsi / İmran Verdiyev // 525-ci qəzet.- 2024.- 15 fevral, №29.- S.10. ***https://www.anl.az/down/meqale/525/2024/fevral/882368.htm***

Məqalədə Rəsulzadənin 1923-cü ildə İstanbulda nəşr etdirdiyi “Azərbaycan Cümhuriyyəti”, 1936-cı ildə Parisdə çap etdirdiyi “Çağdaş Azərbaycan ədəbiyyatı” əsərlərində “bütün türklüyün dahi şairi” hesab etdiyi M.Füzuli haqqındakı, onun Azərbaycan, Şərq, o cümlədən, bütün dünya ədəbiyyatına təsiri barədə fikirləri təhlil edilir, “Azərbaycan

Cümhuriyyəti" əsərində Füzulinin yaradıcılıq dilinin inkişafı ilə Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri arasında maraqlı bir uyğunluğu aşkar etməsi qeyd edilir.

# MÜNDƏRİCAT

Tərtibçidən........................................................................................4

Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..........5

Məhəmməd Əmin Rəsulzadənin həyat və fəaliyyəti haqqında.........6

Məqalələr.......................................................................................14

